# Dövlətin etibarlı gələcəyi, cəmiyyətin aparıcı qüvvəsi

Fevral

Gənclik ömrün ən fəal çağlarıdır. Gənclər mənsub olduğu cəmiyyətin aparıcı qüvvəsi, xalqın, millətin, dövlətin etibarlı gələcəyidir. Azərbaycan gəncləri sabahımızın təminatçısıdır. Bu yazımızda onların uğurlarından, cəmiyyətdə tutduqları mövqedən söhbət açacağıq. Həmsöhbətimiz Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini İndira Hacıyevadır.

**- İndira xanım, sizinlə görüşümüz Gənclər Günü ərəfəsinə təsadüf edir. Mən bu gün münasibətilə sizi və Azərbaycan gəncliyini təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. İstərdik ki, bu günün təsis edilməsi ilə bağlı bir qədər ətraflı danışasınız.**

- Azərbaycanda gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider həmişə xalqına arxalanır, onun gəncliyinə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi, məhz, gənclərlə bağlıdır. Bunun məntiqi nəticəsi olaraq 1996-cı il fevralın 2-də gənclərin ilk Forumu keçirilmiş, Forumda Ümummilli Liderin özü şəxsən iştirak etmişdir. Bunun ardınca, 1997-ci il fevralın 1-də ilk Forumun ildönümü münasibətilə gənclərlə görüşən Ümummilli Lider "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Məhz həmin tarixdən etibarən hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi böyük təntənə ilə qeyd olunur.

Ulu Öndər gənclərlə bağlı siyasətinə hər zaman yeni nəfəs vermiş, bu siyasətin davamlı xarakter almasını şərtləndirmişdir. O, 1998-ci il fevralın 2-də Azərbaycan Gənclərinin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması işi uğurla davam etdirilir.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Eləcə də, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Həm cəmiyyətin, həm də dövlətin gənclərə etibarı artır. Onlar da bu güvəni doğrultmaq üçün əllərindən gələni edirlər. Parlamentdə təmsil olunan gənclərin sayı çoxalır. Biznes sahəsində gənc iş adamları üstünlük təşkil edir. Gənclər bu gün siyasi sferada uğurla təmsil olunur. Azərbaycan gəncləri dünya ölkələrinin gəncləri ilə eyni masada oturub bərabərhüquqlu tərəflər kimi müzakirələr aparır, beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var-qüvvələri ilə çalışırlar. Güclü dövlətin vətəndaşı olmaq, bu ölkənin başçısının hər zaman onların yanında olmasını bilmək gənclərdə özünəgüvən yaradan amildir. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar.

**- Azərbaycanda idmanın inkişafına daim diqqət göstərilib. Müstəqillik illərində isə ölkəmizdə idman kütləvi hal alıb. İdmançılarımızın uğurları da dövlətin bu sahəyə diqqət və qayğısının nəticəsidir. Son 10 ildə gənclərimiz hansı uğurlara imza atıb?**

- Azərbaycanda idman hər zaman cəmiyyətin inkişafının əhəmiyyətli faktorlarından biri olmuşdur. Ümummilli lider Heydər Əliyevin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən mühüm mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi Azərbaycan idmanının həyatında mühüm və əlamətdar hadisə kimi tarixə yazıldı. Bu tarixi seçim ümummilli liderin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkliyə çevrilməsini təmin etdi, idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı.

Azərbaycanda son 10 ildə həyata keçirilən gənclər və idman siyasətinin prioritet istiqaməti gənc nəslin fiziki-mənəvi potensialının möhkəmləndirilməsi və bu potensialın tam açılmasına xidmət edən kompleks tədbirlərin gerçəkləşdirilməsidir. Bu strateji xətti uğurla davam etdirən Prezident İlham Əliyev daim gənclərə layiq olduqları imkanlar səviyyəsində geniş meydan verilməsinə, bu təbəqənin zəruri tələbat və ehtiyaclarının ödənilməsinə çalışmışdır.

Heyəcanlı və xoş anları ilə yaddaşlara yazılan 2021-ci il idman dünyası üçün də bir çox əlamətdar hadisələrlə zəngin olmuşdur. Ötən il dünya idmanı üçün ən mühüm hadisənin 2020-ci ildən təxirə salınmış Tokio Yay Olimpiya və Paralimpiya oyunlarının keçirilməsi oldu. Dünyanı cənginə alan pandemiya idmana və olimpiya hərəkatına mane ola bilmədi. Futbol üzrə Avropa çempionatının final mərhələsi də bir il təxirə salındıqdan sonra Bakı da daxil olmaqla 11 şəhərdə təşkil edildi və Azərbaycan futbol azarkeşləri paytaxtımızda qrup mərhələsinin üç və dördəbir finalın bir oyununu tribunalardan canlı izləmək imkanı qazandılar.

Azərbaycanın dünya və qitə miqyaslı turnirlərə ev sahibliyi etməsi artıq ənənə halını alıb. Ötən il cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turniri, aerobika və batut gimnastikası üzrə dünya çempionatları, 28-ci dünya yaş qrupları yarışları, şahmat üzrə Vüqar Həşimov Memorialı, Formula 1 Azərbaycan Qran-Prisi, paracüdo üzrə Qran-Prisi kimi yarışlar da Azərbaycanın yüksək təşkilatçılıq etdiyi növbəti tədbirlər kimi tarixə yazıldı. Ümumiyyətlə, ötən il ölkəmiz 15 beynəlxalq yarışa ev sahibliyi edib, müxtəlif növlər üzrə yığma komandalarımız 92 təlim-məşq toplanışına cəlb ediliblər. Milli komandalarımız 182 beynəlxalq yarışa qatılıb. Pandemiya qaydalarına riayət etməklə, Bakıda və ölkəmizin müxtəlif şəhər və rayonlarında 57 respublika miqyaslı idman yarışı təşkil edilib. İdmançılarımız il ərzində qitə və dünya çempionatlarında, kubok yarışlarında, Qran-Pri və digər nüfuzlu beynəlxalq yarışlarda uğurla çıxış edərək Azərbaycan üçün 519 medal qazanıblar. Bu da gənclərimizin bütün sahələrdə olduğu kimi, idman sahəsində də özlərini doğrultduqlarının əyani sübutudur.

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə idmana diqqət və qayğısını əks etdirən məqamlardan biri də idmançıları və bu sahədə çalışanları dövlət mükafatları, fəxri adlarla təltif etməsidir. Belə ki, təkcə ötən il ərzində dövlətimizin başçısı idman sahəsinə aid 11 Sərəncam imzalayıb.

Ən mühüm hadisələrdən biri də Ağdamda "İmarət" stadionunun yenidən inşa olunması ilə bağlı qərarın qəbul edilməsidir. Prezident İlham Əliyevin "Şuşa ili" elan etdiyi 2022-ci ildə ilk addım kimi həmin stadion yenidən inşa olunacaq.

**- Respublikamızda həyata keçirilən inkişaf strategiyası ölkədə gənclərin hərtərəfli inkişafının artırılmasını da özündə əks etdirir. Gənclər və İdman Nazirliyinin bu istiqamətdəki fəaliyyətini necə dəyərləndirirsiniz?**

- Prezident İlham Əliyevin imzaladığı 2015-2025-ci illəri əhatə edən "Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq olunub. Bu Strategiya gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədi daşıyır. Sözügedən sənəddən irəli gələn vəzifələrin yerinə yetirilməsi Gənclər və İdman Nazirliyinə həvalə edilib.

Azərbaycan bütün gücü ilə inkişaf edən ölkədir. Son 10 ildə görülən işlərə nəzər salsaq, yüksək intellektual bacarıqlara malik olan və ölkənin ictimai-siyasi həyatında aktiv şəkildə fəaliyyət göstərən gənclər ordusunun formalaşdığını görərik. Hazırda gənclər dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və digər sahələrdə uğurla çalışır, ölkəmizi şərəflə və yüksək səviyyədə təmsil edirlər. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarır.

Ölkəmizdə idman həyatında mühüm hadisələrdən biri də Azərbaycan Prezidentinin 2021-ci il 7 sentyabr tarixli Sərəncamı ilə Fərid Qayıbovun gənclər və idman naziri vəzifəsinə təyin edilməsi oldu. Dövlətimizin başçısı həmin gün gənclər siyasəti və idmanın inkişafı ilə bağlı bir sıra tapşırıq və tövsiyələrini verdi.

**- Gənclər hər bir xalqın, dövlətin gələcəyidir. Azərbaycan dövləti də hər zaman bu böyük qüvvənin potensialına arxalanır. 44 günlük Vətən müharibəsinin qəhrəmanı da Azərbaycan gəncliyidir, düşmən üzərində tarixi qələbənin qazanılmasında onların rolu danılmazdır. Azərbaycan gəncliyi bu sınaqdan necə çıxdı?**

- Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Böyük qürurla deyə bilərik ki, Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsindən şərəflə çıxdılar. Bununla ri gününün birinci ildönümü münasibətilə keçirilən tədbirdə tarixi çıxış etmiş, gənclərə müraciətində demişdir: "Mən sizi gördükcə daha da ruhlanıram, siz Mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti sizin - gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik ".

**- Gənclər siyasəti dövlətimiz üçün hər zaman prioritetdir. Azərbaycan gəncliyi bu gün də qayğı ilə əhatə olunur, onların cəmiyyətdə fəal mövqe tutmalarına şərait yaradılır. Sizcə, müasir dünyamızın inkişaf dinamikasında gənclərimizin yeri necə görünür?**

- Hər bir dövlətin əsas missiyası gələcəyini etibar edəcəyi nəsil formalaşdırmaqdır. Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. Həmin sərəncamda ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapıb. Bu istiqamətlər tamamilə xalqımızın milli mənafelərinin inkişafına yönəldilərək gəncləri ideya müəllifi olmağa səsləyirdi. Yəni hər bir gənc fərdi qaydada özünü idarəçi kimi yetişdirməli, daim təşəbbüskarlıq göstərməlidir.

"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Hazırda ölkəmizdə 300-ə yaxın gənclər təşkilatı fəaliyyət göstərir.

Daim Azərbaycan gənclərinin yanında olan Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə 2019-cu ildə təşkil olunan respublika toplantısında iştirakı, dövlətimizin başçısının gənclərin fəaliyyətinə yüksək diqqət verməsi, eləcə də Azərbaycan gəncliyinin qarşısında duran əsas hədəf və vəzifələri dəqiq müəyyənləşdirməsi, müxtəlif sahələrdə böyük uğurlar qazanan, fədakarlıq göstərən gəncləri təltif etməsi gənc nəslin bütün nümayəndələrini daha böyük nailiyyətlər əldə etməyə həvəsləndirməklə yanaşı, onlara əsl bayram sevinci yaşatdı.

Dövlətimizin başçısının "Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 1 oktyabr tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması, habelə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verilməsi məqsədilə ölda gənclərimiz fevralın 2-ni Azərbaycanda Gənclər Günü elan edən ulu öndər Heydər Əliyevin arzusunu yerinə yetirdilər. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin gözləntilərini layiqincə doğrultdular. Vətən müharibəsində qazanılan qələbə Azərbaycanın bəşəri qələbəsi oldu. Bu qələbə həm də Azərbaycan gəncliyinin qüdrəti kimi də tarixə düşdü.

Sevindirici haldır ki, gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

**- Gələcək planlarınız barədə nə deyə bilərsiniz?**

- Bu gün gənclər siyasətində yeni mərhələ başlanır ki, bu da ilk növbədə Azərbaycanın möhtəşəm qələbəsi və pandemiya ilə şərtlənir. Gənclərə əlçatanlığın təmin edilməsində virtual məkandan istifadə bu günün tələbidir. Pandemiya bunu bir qədər də gücləndirdi. Gənclərin istəklərinin və vəziyyətinin öyrənilməsi, potensialının üzə çıxarılması istiqamətində yeni vasitə və metodlardan istifadə edilməlidir. Gənclərlə işləyən qurumların fəaliyyəti gücləndirilməli, bu sahədə bacarıqlı kadrlar hazırlanmalıdır. Gənclər evlərinin işinin gücləndirilməsi, gənclərin robotatexnika, yeni texnologiya sahəsində biliklərinin, məşğulluğunun artırılması, zərərli vərdişlərə "yox!" deməyi bacaran iradəli, beynəlxalq səviyyədə yeni çağırışlara hazır olan, vətənpərvər gənclərin yetişdirilməsi Gənclər və İdman Nazirliyinin daxili strategiyasının əsasını təşkil edir. Bugünkü qloballaşma şəraitində millikllə bəşəri dəyərlərin balansını yaratmaqla gənclərimizin kökümüzdən ayrılmamaq şərti ilə inkişafını təmin etmək fəaliyyətimizin əsas istiqamətini təşkil etməlidir.

Əminliklə demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparır. Bu yolda gənclərimizin ən böyük himayədarı və dəstəkçisi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlətimizin başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz, mən də sizə arxalanıram", - sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir.

Mən də gənclərimizə gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

- Müsahibəyə görə təşəkkürümüzü bildiririk.

**Müsahibəni hazırladı:**
**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**